DOI: https://doi.org/10.36719/2706-6185/33/167-172

**Səmran Muradov**
Azərbaycan Turizm və Menecment Universiteti
magistrant
semranmuradov2001@gmail.com

# AZƏRBAYCANDA MÖVCUD OLAN İSLAMDAN QABAQKI ARXEOLOJİ VƏ TARİXİ-MEMARLIQ ABİDƏLƏRİ

**Xülasə**

Bəşər sivilizasiyasının ilkin meydana gəlmiş ərazilərindən biri də Azərbaycandır. İlk növbədə buna səbəb insanların yaşaması üçün mülayim və münasib təbii şərait olmuşdur. Bizim ərazilərimizdə aparılmış arxeoloji qazıntıların nəticələri göstərmişdir ki, Azərbaycanda yaşamış qədim insanlar tarix boyu şərəfli yaradıcılıq yolu keçərək çoxsaylı mədəniyyət əsərləri yaratmışlar və onlardan biri də tarixi-memarlıq abidələridir. Bu kontekstdə məqalədə ümumi araşdırmalar aparılmış və yerli müəlliflərin əsərlərinə istinad olunaraq dəqiq fikir və mülahizələr qeyd edilmişdir.

***Açar sözlər:*** *Mədəniyyət, islam, arxeoloji abidə, tarixi-memarlıq abidəsi, mühafizə*

**Samran Muradov**
Azerbaijan Tourism and Management University
master student
Semranmuradov2001@gmail.com

## Pre-Islamic archaeological and historical-architectural monuments in Azerbaijan

**Abstract**

Azerbaijan is one of the first territories of human civilization. First of all, the reason for this was mild and suitable natural conditions for people to live. The results of the archaeological excavations conducted in our territories have shown that the ancient people who lived in Azerbaijan created numerous cultural works through the glorious creative path throughout history, and one of them is the historical-architectural monuments. In this context, general researches were conducted in the article and specific ideas and considerations were noted by referring to the works of local authors.

***Keywords:*** *culture, Islam, archaeological monument, historical-architectural monument, protection*

## Giriş

Memarlığın tarixi başlanğıcı ibtidai insanların yaşadığı təbii mağaralardan başlayır. Azərbaycan ərazisində belə mağaraların sayı olduqca çoxdur. Böyük və Kiçik Qafqaz dağlarının ətəklərində, Talış dağlarında, Naxçıvan MR-da, Zəngilan, Kəlbəcər, Gədəbəy, Xanlar, Şamaxı və nəhayət Füzuli rayonu ərazisində aşkar edilmiş Azıx mağarası buna misal ola bilər. Belə mağaralarda aparılmış tədqiqatlar göstərir ki, burada yaşamış ibtidai insanlar 1,5 milyon il öncə, yaşayışlarını mağaralardakı şəraitə uyğunlaşdırmaq məcburiyyətində qalsalar da sonralar şüurun inkişafı və bəzi əmək və inşaat alətlərinin yaranması ilə əlaqədar olaraq onlar yaşadıqları təbii mağaraları öz yaşayış tərzlərinə uyğunlaşdırmağa çalışmışlar.

Mağaranın ortasında yandırılmış ocaq tüstüsünü xaric etmək üçün tavandan deşik (baca) açılması, yaxud müəyyən lazımi ləvazimatların saxlanması üçün mağaranın daxili divar səthində xüsusi oyuqların açılması buna əyani sübutdur. İbtidai insanların təbii mağaralar üzərində apardıqları belə yenidənqurma işləri sonrakı dövrlərdə süni mağaraların yaranması ilə nəticələnmişdir. Təbii mağaralar kimi bir neçə küyüldən ibarət olan süni mağaralar da yer səthindən xeyli hündür məsafədə dik qayalar və dağ döşündə düzəldilmişdir.

Azərbaycan ərazisində süni mağaralara Böyük Qafqaz dağlarının cənub-şərq ətəklərində, Kiçik Qafqaz dağlarında, Qubadlı rayonunda Bərguşad, Əkərə çayları vadilərində, Şirvan regionunda Mərəzə, Sündi və Dərəkənd yaxınlığında, eləcə də cənub əyalətlərində qədim Manna və Midiya dövlətlərinə mənsub olan ərazilərində də təsadüf edilmişdir. Harada tikilməsindən asılı olmayaraq, özlərini müdafiə etmək məqsədi ilə insanlar süni mağara tipli evlərin bir qayda olaraq yer səthindən xeyli hündür məsafələrdə düzəldirdilər. Lakin sonralar inşaat tipinin, konkret olaraq daş hörgüsü meydana çıxdıqdan sonra süni mağaralarda əvvəl azacıq sonralar isə tədricən ciddi dəyişikliklər baş verdi.

Daş hörgüsünün meydana çıxması nəticəsində yeni tipli qazma və yarımqazma binalar inşa edilmyə başladı. Belə binalar adətən dağların və yamacların döşündə inşa olunmuşdur. Hələ hörgü işinə o qədər mükəmməl yiyələnməyən və mənzili lazımi səviyyədə qızdırmağa malik olmayan ibtidai insanlar evlərinin yarı hissəsini yeraltı küyl şəkildə quraşdıraraq yalnız onun yer yüstünə çıxan hissəsini — dəhlizini təbii daşlarla eyvan şəklində hörüb özlərini dəyişən təbiətin isti-soyuğundan qorumuşdur. Elmi mənbələrdə belə binaların hələ Midiya dövründən çox-çox öncə meydana çıxması və Midiya dövründə geniş yayıldığı qeyd olunur.

Mağara tipli yaşayış binalarının sonrakı inkişaf mərhələlərində daş hörgüdən əvvəllər küyülün ön və yan divarlarında sonra isə arxa tərəfində istifadə olunmuşdur. Tədricən mənzil divarlarının daş hörgü ilə əvəz olunması və insanların bu hörgü ilə bağlı inşaat mədəniyyətinin təkmilləşməsi binaların qazma və yarımqazma formasından yerüstü inşasına gətirib çıxarmışdır.

Öz başlanğıcını süni mağaralardan almış belə binalar uzun bir tarixi inkişaf prosesi keçmiş və memarlıq tarixində "Qaradan" adı ilə məşhurlaşmışdır. Azərbaycan ərazisi müxtəlif təbii-coğrafi şəraitə və iqlim qurşaqlarına malik olduğu üçün burada inşa edilmiş qaradanlar da tədricən yerli iqlim şəraitinə uyğunlaşdırılaraq müxtəlif memarlıq-planlaşdırma xüsusiyyətlərinə malik olmuşdur. Adətən belə evlərdə insanlara məxsus olan ev heyvanları da saxlanılırdı. Tarixi məlumatlara görə Azərbaycanda qaradanlardan XX yüzilliyin əvvəllərinə qədər istifadə edilmişdir.

Qobustanda aşkar edilmiş ən qədim yaşayış yerləri (mağaralar, müxtəlif primitiv sığınacaqlar və s.) ilə yanaşı, meqalit memarlıq abidələri-kromlexlər, menhirlər (çoban daşı), dolmenlər və siklop tikililəri geniş yayılmışdı.

Hündür daşlardan quraşdırılmış bu qurğular el arasında "qalaça", yaxud "hörükdaş" adlanır. Naxçıvan şəhərinin yaxınlığındakı Çalxanqala (Tunc dövrü) və Arpaçay sahilindəki Qaratəpə divarındakı Oğlanqala (e.ə. II-I minilliklər) müdafiə tikililəri siklop tikililərə aid edilir. Güney Azərbaycanın ərazisində, Araz yaxınlığında da qala tikililəri (Bastam, Danalı, Qalaoğlu və s.) aşkar edilmişdir.

Azərbaycan ərazisində Manna dövlətinin təşəkkülü (e.ə. IX-VII yüzillər), daha sonralar güneydə Atropatena dövlətinin yaranması ilə bağlı şəhərlər əmələ gəlmiş, müdafiə tikililəri, əzəmətli qala divarları inşa edilmişdi. Həsənli rayonundakı abidələr kompleksi, eləcə də Urmiya gölü sahilindəki qayalarda çapılmış sərdabələrin tədqiqi göstərir ki, VII yüzildən eyvanlı mənzil tipi təşəkkül tapmışdı. Həmin dövrün digər memarlıq qurğularından yeganə dini tikili olan od mehrabları (müqəddəs odun saxlandığı yer) dövrümüzədək gəlib çatmışdır. Bu dövrdə yaranmış memarlıq tipləri Azərbaycan memarlığının sonrakı inkişafına, eləcə də Əhəmənilər dövründə İranın və ön Asiyanın digər ölkələrinin memarlığına əhəmiyyətli təsir göstərmişdir. Atəşpərəstliyin yayılması ilə bağlı yaranan ibadətgahlar (atəşgədələr) islamdan öncə tikilmiş əsas dini binalar olmuşdur (Hüseynov, 1981).

Qafqaz Albaniyası dövründə (e.ə. IV yüzil - eramızın VII yüzili) şəhərsalma sahəsində mühüm addımlar atılmışdır. Qəbələ şəhəhərinin möhkəm qala divarları, saxsı borularından çəkilmiş su kəməri, Dəmirqapı (Dərbənd) keçidində daşdan tikilmiş müdafiə sistemi ("uzun divarlar"), Çıraqqala (VI yüzil), Ləkit kəndindəki dairəvi xristian məbədi (V-VI yüzillər), Qum kəndindəki bazilika (təqribən VI yüzil), Mingəçevirdəki məbədlər kompleksi (VII yüzil) və s. bu şəhərsalma mədəniyyətinin yüksək səviyyəsini göstərir. Sasanilər dövrü memarlıq abidələrindən müdafiə tikililəri özəlliklə diqqəti cəlb edir.

Xəzər dənizinin sahilindən başlayaraq, Babadağın ətəyində qurtaran Gilgilçay səddi və indiki Dəvəçi rayonu ərazisində yerləşən Beşbarmaq dağından başlayıb, Xəzərin sahillərinə qədər uzanan Beşbarmaq səddi Azərbaycanda istehkam tikililərinin inkişafı haqqında geniş təsəvvür yaradır (Göyüşov, 1986).

Ərəb istilasından (VII yüzil) sonra Azərbaycanda islam dininin yayılması ilə bağlı memarlığın da inkişaf yönü dəyişdi. Memarlıqda yeni tipli binaların — məscid, mədrəsə, türbə, karvansara və s. tikilməsi əsas xətt oldu. Bərdə, Ərdəbil, Marağa, Urmiya, Şamaxı, Şəmkur (Şəmkir), Şabran, Beyləqan, Gəncə və Naxçıvan bu dövrdə Azərbaycanın ən önəmli şəhərləri idi. Şamaxı, Gəncə və Beyləqanın böyük şəhərlərə çevrilməsi də məhz bu dövrə aiddir.

Bu dövrdə islam dini ilə bağlı tikililərlə yanaşı, Qafqaz Albaniyasının bəzi əyalətlərində xristian məbədləri, müdafiə istehkamları inşa edilirdi. Bunlardan indiki İsmayıllı rayonu ərazisində salınmış Cavanşir qalası (təqribən VII yüzil) və Qazax rayonunun Yuxarı Əskipara kəndi yaxınlığındakı qala kompleksi (V-VIII yüzillər) diqqəti özəlliklə cəlb edir (Göyüşov, 1986).

Azərbaycanın çoxəsrli tarixini özündə əks etdirən çoxlu incəsənət və memarlıq abidələri var. Alimlər sübut etmişdir ki, bu tarixi memarlıq abidələri turistləri hər zaman özünə cəlb etməyi bacarmışdır. Respublikamızın hər bir şəhər və rayonu özünəməxsus həmahənglyi ilə seçilir. Tarixi-memarlıq abidələrinə eksursiya təşkil edilərkən ekskursiya gidləri həmin vilayət və rayonun tarixini, toponimikasını, etnoqrafiyasını, və coğrafi baxımdan yerləşməsini ətraflı şəkildə bilməli və müəyyən bilikləri ekskursiyaçılara  çatdırmağı bacarmalıdırlar.

“Azərbaycan özünün güclü siyasəti ilə avropa mədəniyyət konvensiyasına qoşulmuş, YUNESKO ilə əməkdaşlıq etmiş və beynəlxalq aləmdə öz mövqeyimizin güclənməsi nəticəsində ölkənin turizm potensialını artırmışdır. Hazırda isə Azərbaycan MDB məkanında turist qəbuluna görə ön sırada durmağı bacarmışdır. Bunun əsl səbəbi isə ölkənin göz oxşayan təbiətinin rəngarəngliyi və dövlətimizin turizm sahəsinin inkişafına diqqətindən irəli gəlir. Tarixi abidələrə ekskursiyalar təşkil edilən zaman gid və ya ekskursiya rəhbəri tarixi-coğrafi bilikləri bilməli və təhlükəsizlik qanunlarına ciddi əməl edərək ekskursantları lazım olan biliklərlə təmin etməlidirlər” (Xəlilov, 1961).

**İslam memarlığı**-islam ölkələrində formalaşmış, fərqli üslublara malik olub dini, mədəni, siyasi xarakter daşıyır. Bu memarlıq nümunələrinə həm dini, həm də dünyəvi müəssisələrin binaları daxildir. İslam memarlığı müxtəlif müsəlman dövlətlərinin ənənələrini özündə cəmləşdirir. Quranın incəsənətin bütün növlərinə, xüsusən memarlığa, böyük təsiri olmuşdur. İslam dünyasının hər bir bölgəsinin memarlığı Səudiyyə Ərəbistanın, İraqın, Türkiyənin, İranın, Azərbaycanın, Suriyanın, Fələstinin, Misirin, Məqribin, Cənubi İspaniyanın yerli köklərindən yaranırdı. Hər bir islam ölkələrinin özünə məxsus xüsusiyyətləri olmuşdur. Buna görə də Suriyanın abidələri-İraqın və İranın abidələrindən orta əsr Əndəluz-Məqrib regionundan seçilirdi. Ərəb işğalçıları fəth etdikləri xalqların məbədlərinin (Roma, Yunan və Zərdüştlər məbədlərinin) yerində gözəl məscidlər yaradırdılar (8).

**Qafqaz Albaniyasının memarlığı** – Qafqaz Albaniyasının müstəqil və vassal dövlət kimi mövcud olduğu e.ə. II əsrdən b.e.-nın VIII əsrinə kimi onun tabeliyinə daxil olmuş ərazilərdə yaranmış və inkişaf etmiş memarlıqdır.

Qafqaz Albaniyasının ən qədim memarlıq ənənələri haqqında olduqca az məlumat vardır. Bu, həm həmin dövrləri əks etdirən tarixi mənbələrin olmaması, həm də sonrakı dövrlərdə memarlıq nümunələrinin köhnə ibadət yerlərində, bir sıra hallarda birbaşa köhnə məbədin binası üzərində inşa edilməsi ilə əlaqədardır. IV-VII əsrlərdə Qafqaz Albaniyası ərazisində aktiv inşaat işlərinin aparılmasını tarixi mənbələr də sübut edir. Daha aktiv inşaat-quruculuq işlərinin aparılması isə III Mömin Vaçaqan və Cavanşirin hakimiyyətləri dövrünə təsadüf edir (7).

IV əsrə Qafqaz Albaniyasında xristianlığın dövlət dini elan edilməsindən sonra bütün ölkə ərazisində oxsaylı dini tikililərin inşasına başlanılır, həmçinin köhnə məbədlərə əlavələr edilərək onlar xristian kilsəsinə çevrilirlər. Bu cür dəyişiklərə məruz qalmış abidələrə nümunə əlaraq, Ləkit, Kilsədağ, Mamrux, Mingəçevir kilsələrini göstərmək mümkündür.

B.e. ilk əsrlərindən etibarən Qafqaz Albaniyası ərasizində bir və üç nefli bazilikaların inşasına başlanılır. Erkən orta əsrlərdə Qafqaz Albaniyası ərazisində unikal memarlıq xüsusiyyətlərinə malik dairəvi məbədlər inşa edilir. VII əsrdən başlayaraq isə zal kompozisiyalı binalara günbəzlər əlavə edilir. V–VI əsrlərdən etibarən Qafqaz Albaniyasında xaç-günbəz tipli kilsələrin inşasına başlanılır, VII əsrdən bu tipli dini binalar geniş yayılır. Qafqaz Albaniyasının memarlığı Cənubi Qafqaz və Cənubi Dağıstan xalqlarının memarlığına təsir etmişdir (7).

1960-cı illərdə Azərbaycan şəhərsalma və memarlığın inkişafında keyfiyyətcə yeni dövr başlayır. Azərbaycan Respublikasının paytaxtı Bakı şəhəri məhz bu illərdə paytaxt tipli böyük şəhərə çevrilmişdir. Bakının ən görkəmli yerlərində gözəl memarlıq ansamblları yaradılmış, şəhərin simasını müəyyən edən müasir binalar ucadılmışdır. Bunların tam əksəriyyəti ümummilli liderimiz o zaman Azərbaycanın rəhbərliyinə gəlmiş Heydər Əliyevin şəxsi təşəbbüsü ilə və fəal nəzarəti altında layihələndirilib tikilmişdir (Səfərəliyeva, 2016).

"İçəri şəhər"in din mədəniyyətini əks etdirən tarixi-memarlıq abidələri vaxtilə xalqın ictimai inkişafına təsir göstərirdi. Beləki, orta əsrlərdə elm və təhsil sisteminin inkişafında məscidlər mühüm rol oynayırdı. Ərazidə yerləşən dini abidələr memarlıq qurluşuna görə fərqlənirlər. Came (Cümə) və Məhəllə məscidləri.

Came (Cümə) məscidləri – əsasən böyük həcmli, minarəli məscidlərə deyilir. Cümə namazını qılmaq üçün əhali came məscidinə toplaşar, müxtəlif dini mərasimlər də orada keçirilərdi.

Məhəmməd (Sınıq qala) məscidi – İçərişəhərin dövrümüzə qədər gəlib çatmış ən qədim məscidi olan bu tikili (471h) 1078/79-cu illərdə ustad rəis Məhəmməd Abu Bəkr tərəfindən tikilmişdir. Məscidin ikinci adı "Sınıqqala" dır, məscid bu adı 1723-cü ildə rusların Bakını top atəşinə tutması nəticəsində minarəsinin müəyyən qisminin dağılmasından sonra almışdır. Məscid ölkə əhəmiyyətli abidədir.

Şah məscidi - XV əsr abidəsi olan bu məscid Şirvanşahlar Sarayı Kompleksinin aşağı həyətində yerləşir. Məscid minarəsinin stalaktit kəməri altında son dərəcə nəfis işlənmiş yazıda deyilir: "Böyük sultan Xəlilullah 845-ci ildə (1441/42) bu minarənin tikilməsini əmr etdi". Məscid Şirvanşahlar Saray kompleksinə daxildir və dünya əhəmiyyətli abidədir (Azərbaycan tarixinin ən qədim zamanlardan X əsrə qədər dövrünü əhatə edən ekspedisiyaya həsr edilmiş elmi sessiyanın məruzə və xəbərlərinin tezisləri, 1956: 54).

Came (Cümə) məscidi – XIV əsrdə qədim məbədin yerində inşa edilmişdir. XIX əsrin sonunda isə qədim minarəsi qorunub saxlanılmaqla məscidin köhnə binası yenisi ilə əvəz olunmuşdur. Əsasən böyük həcmli, minarəli məscidlərə came məscidləri deyilir. Bu məscidlər gündəlik ibadətlərdən əlavə, həftənin cümə günlərində, bayram namazlarında və dini mərasimlərdə toplaşmaq üçün nəzərdə tutulurdu. Məscid ölkə əhəmiyyətli abidədir.

Bəylər məscid: 1895-ci ildə tikilmiş Bəylər məscidinin inşasında Məhəmməd Haşim Əl - Bakuinin oğulları Hacı Baba və Hacı Cavad, eləcə də məşhur Bakı milyonçusu Ağa Murtuza Muxtarov, İbrahim Şirvani (xəttat), Mir Əli ən - Nağı, Mir Tağı, Seyid Hüseyn də (usta memar) iştirak etmişdilər. O daha qədim məscidin yerində tikilmiş və mükəmməl minarə ilə tamamlanan əyri xətt şəkilli küçənin planlaşdırılma xüsusiyyətinə uğurla daxil olmuşdur. Məscid yerli əhəmiyyətli abidədir.

Məhəllə məscidləri – "İçəri şəhər" bir necə məhəllədən ibarət olub. Məscidlər adətən məhəllənin imkanlı sakinləri tərəfindən inşa edilirdi. Məhəllə məscidləri birotaqlı, oxşar planlı və günbəzli olurdu. Məscidlərin sayı məhəllənin böyuklüyündən asılı idi. Ona görə də bəzən bir məhəllədə bir neçə məscid yerləşirdi.

Aşur məscidi – 1171-ci ildə Bakılı Nəccar İbrahim oğlu ustad Aşur tərəfindən qədim atəşpərəstlik məbədinin üzərində inşa edilmişdir. Stalaktitlərlə bəzədilmiş zəngin mehrabı, bir otaqlı geniş ibadət zalı və çatma formalı girişi vardır. Ölkə əhəmiyyətli abidədir.

Cin məscidi - XIV əsrdə inşa olunduğu adının isə, Qurani Kərimdəki "cin" surəsindən aldığı ehtimal edilir. Düzbucaq formalı məscidin çatma daş qübbə ilə örtülmüş bir otaqlı ibadət zalı və klassik tipli portal - girişi vardır. Yerli əhəmiyyətli abidədir (Azərbaycanın tarixi abidələri və toponimləri: biblioqrafiya, 2016: 648).

Gileyli (Comərd Gəray) məscidi - 1309-cu ildə inşa olunan məscidə, XIX əsrdə bəzi əlavələr edilsə də kompozisiyanın vəhdəti pozulmamışdır. Taclı və çatma formalı günbəzlə inşa olunan məscidin ibadət zalının daxili interyerini zənginləşdirən naxışlı mehrabı və künclərdə kiçik otaqları vardır. Ölkə əhəmiyyətli abidədir.

Hacı Bani məscidi - XVI əsrdə memar Hacı Bani tərəfindən inşa edilmişdir. Plan üzrə mərkəzi günbəzlidir, iki böyük pəncərəsi vardır. 1902-ci ildə təmir olunandan sonra ənənəvi memarlıq üslubu saxlanılmaqla məscidə dəhliz və qadınlar üçün otaq da əlavə edilmişdir. Ölkə əhəmiyyətli abidədir.

Çin (Qazi Fədlallah bin Osman) məscidi – 1375-ci ildə Fəzlullah İmam Osman Şirvani oğlunun vəsiyyəti ilə inşa edilmişdir. Xalq etimalogiyasına görə məscidin "Çin"adının alması bura gələn insanların arzu və diləklərinin çin olması ilə əlaqədardır. Ölkə əhəmiyyətli abidədir.

Keyqubad məscidi (qalıqlar) – XIV əsrdə inşa edilmiş məscid Şirvanşahlar Saray kompleksinə daxildir, hal-hazırda isə məscidin konservasiya olunmuş fraqmentləri qalmaqdadır. 1918-ci il mart soyqırımı zamanı dağıdılmış məscidin Şirvanşah I Keyqubad tərəfindən tikildiyi ehtimal olunur. Dünya əhəmiyyətli abidədir.

Mədrəsə məscidi – XII əsrdə inşa edilən və son orta əsrlərədək məscid-mədrəsə kimi fəaliyyət göstərmişdir. Mədrəsə ali təhsil ocağı idi. Burada müridlər (tələbə) mürşidlik (müəllim) dərəcəsi alırdılar. İslam dininin mahiyyətini dərk etmək üçün dünyəvi elmlərin də tədrisinə xüsusi diqqət verilərdi.

Belə ki, fiqh (şəriət hökmləri), təfsir (dinin izzahı), kəlam(dini əqidələri) kimi ilahiyyat elmləri ilə birlikdə, riyaziyyat, coğrafiya, məntiq, ədəbiyyat və s. elmlər də lazımi səviyyədə tədris olunardı. XVII əsrin ortalarında Bakıda 10-dan çox məktəb və 2 mədrəsə olmuşdur. Ölkə əhəmiyyətli abidədir (9).

## Nəticə

Ümumiyyətlə, islamdan öncəki və sonrakı dövrlərdə Azərbaycan ərazisində inşa edilmiş alban tikililəri memarlığın inkişafında önəmli rol oynamışdır. Bu abidələrdən Zaqatala rayonundakı Paşan və Muxax kəndlərində IV-V yüzillərə aid tikili qalıqları, Şəki rayonunun Böyük Gəldək kəndində Govurqala (VI yüzil), Qəbələ rayonundakı Böyük Əmirli kəndində (IV-VIII yüzil) alban məbədləri, Oğuz şəhərində alban kilsəsi (orta əsrlər), Dağlıq Qarabağın Xocavənd rayonunun Qarakənd kəndində Alban kilsəsi (I yüzil), Sos kəndində (IV yüzil), İatsi kəndində (V, VII və VIII yüzillərə aid 4 məbəd), Taqaverd kəndində (675), Güneyçartar kəndində (1236) alban məbədləri, Ağdərə rayonunun Aterk (V yüzil), Kolatağ (614), Qoçoqot (672, 698), keçmiş Dostahir (713), Qasapet (718), Çaldıran (XII yüzil) kəndlərində, eləcə də Yuxarı Qarabağın başqa bölgələrindəki Susanlıq (IV-VI yüzillər), Vanq (IX yüzil), Traxtik (1094), Tsakuri (1131), Məmmədadzor (1147), Tuğ (1197) kəndlərində, Əsgəran rayonunun Şuşikənd (905), Çanaqçı (1065 və 1100), Xaçmaç (1100), Xantsk (1122), Xndzristan (1202) kəndlərində alban məbədləri dövrümüzədək mühafizə olunmuşdur.

## Ədəbiyyat

1. Hüseynov, M. (1981) Azərbaycanın arxeoloji abidələri: Qədim daş dövrü – orta əsrlər: dərs vəsaiti. Q.İsmayılov; N.Quliyev; elmi red. F.Mahmudov; AzSSR Ali və Orta İxtisas Təhsili Nazirliyi, S.M.Kirov ad. ADU. Bakı, 67 s.
2. Göyüşov, R. (1986). Azərbaycan arxeologiyası. Rəşid Göyüşov; red. V.Əliyev; rəy.: T.Bünyadov, N.Rzayev, M.Hüseynov. Bakı: İşıq, 185 s.
3. Xəlilov, C. (1961). Maddi mədəniyyət abidələrinin əhəmiyyəti və qorunması. Red. M.Müştaq; AzSSR EA Tarix İn-tu. Bakı: Azərnəşr, 56 s.
4. https://az.wikipedia.org/wiki/%C4%B0slam_memarl%C4%B1%C4%9F%C4%B1
5. https://az.wikipedia.org/wiki/Qafqaz_Albaniyas%C4%B1n%C4%B1n_memarl%C4%B1%C4%9F%C4%B1
6. Səlimxanov, İ. (1967). Arxeoloji tədqiqatlarda bəzi yeni metodlar haqqında. Bakı: Bilik, 21 s.

7. Azərbaycan tarixinin ən qədim zamanlardan X əsrə qədər dövrünü əhatə edən ekspedisiyaya həsr edilmiş elmi sessiyanın məruzə və xəbərlərinin tezisləri. (1956). AzSSR EA, Azərbaycan Tarix Muzeyi. Bakı, 54 s.
8. Azərbaycanın tarixi abidələri və toponimləri: biblioqrafiya. (2016). Tərt. ed. G.Səfərəliyeva; ixt. red. və burax. məsul K.Tahirov; red. L.Axundova. Bakı, 648 s.
9. https://icherisheher.gov.az/az/70-route/

Göndərilib: 23.01.2024 Qəbul edilib: 20.03.2024